*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 may 2017-ci il    № 38 (2155)    Qiymıəti 25 qəpik

# Vətən müqəddəsdir



*Ötən sayımızda cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində "Vətən mənə oğul desə, nə dərdim" devizi ilə keçirilən Məmməd Araz poeziya günü ilə bağlı tədbir Azərbaycanın ustad şairlərindən birini yenidən xatırladır. Əslində, Məmməd Araz cismən aramızda olmasa da, onun sözü, sənəti, ruhu, bir sözlə, şeir-sənət adlı bir sevdası bizimlədir. Oxucu Məmməd Arazı misra-misra, sətir-sətir oxuduqca onun poetik dünyasına vurulur, Vətənə, xalqa, millətə olan sonsuz sevgisinə heyran qalır. Əsl şairin xoşbəxtliyi ondadır ki, yoxluğundan illər, qərinələr ötsə də, sözü-söhbəti ilə xatirələrdə yaşayır.*

"Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim" deyən ustadın doğulduğu kəndi hansı məhəbbətlə sevirdisə, bütöv Azərbaycan adlı məmləkətə də elə bir istəyi vardı. Və bu sevgi, şairin poeziyasında təbii çalarları ilə canlanır. Şairin təəbirincə desək, Vətən ona böyük məhəbbət bəsləyən, uğrunda fədakarlıq göstərən insana əsl övlad gözü ilə baxır. Mübariz, Murad, Elnur, Raquf, Çingiz... kimi. Vətənə sevgi ilahi bir sevgidir.

Sağlığında bir neçə dəfə cəbhə bölgələrinə səfər edən xalq şairi Məmməd Araz Murovdağ istiqamətində əsgərlərimizlə görüşündən çox böyük təəssüratla qayıtmışdı və mətbuata açıqlamalarından birində demişdi ki, Murovun bir gününü, bir gecəsini yaşamaq da qəhrəmanlıqdır.

Ruhun şad olsun, ustad, sənin ayaq basdığın o yerlərdə neçə illərdir ki, Azərbaycan əsgəri keşik çəkir, övladı olduğu Vətəni qoruyur.

Ana bildiyimiz Vətənin mehrini görürük, nazını çəkirik, dar gündə yarağı oluruq. Bu gün Azərbaycanımızın bir hissəsi yağı tapdağında inləyir, gözəl Qarabağımızda, Şuşamızda yadlar dolaşır. Bu işğal müvəqqətidir, heç vaxt əzəli-əbədi yurd yerlərimiz düşmənə yuva ola bilməz. Ötən ilin aprel döyüşləri də bunu təsdiqlədi, düşmənimizə bir həqiqəti anlatdı ki, Azərbaycan xalqı torpaqlarının bir qarışını da güzəştə getməyəcək. Bunu xalqımız deyir, Prezidentimiz bəyan edir.

Bir neçə günlük aprel döyüşləri işğalçı Ermənistan dövlətinin öz hərbi gücü, məğlubedilməz ordusu haqqında yaratdığı mifin tamamilə cəfəngiyyat olduğunu bütün dünyaya göstərdi. Hamı yəqin etdi ki, Ermənistan ordusunda nə hərbi güc, nə də döyüş ruhu var. Əgər döyüş ruhu olsaydı, onlar toplarımızın, mərmilərimizin vahiməsindən qorxub qaçmağa məcbur olmazdı. Azərbaycan əsgəri isə Vətəni uğrunda son nəfəsinədək döyüşmək əzmini sübut etdi. Əsl vətənpərvərlik, yurda, torpağa bağlılıq budur. Vətən onu göz bəbəyi kimi qoruyan insanlarla qüdrətlənir, məğlubedilməz olur.

**"Azərbaycan Ordusu", foto Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan ilə Yaponiya arasında hərbi əlaqələrin yaradılması məsələləri müzakirə edilib



Mayın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüşüb.

Azərbaycan ilə Yaponiya arasında bir çox istiqamətlərdə mövcud əməkdaşlığın və qarşılıqlı etimadın gücləndirilməsinə xidmət edən fəaliyyətləri xüsusi vurğulayan nazir diplomatik fəaliyyətində səfirə uğurlar arzulayıb.

Ölkəmizdə fəaliyyətə başlamasından məmnun olduğunu bildirən diplomat Azərbaycan-Yaponiya münasibətlərinin inkişafı, xüsusilə hərbi sahədə əlaqələrin yaradılması üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

Görüşdə tərəflər bölgədəki hərbi-siyasi vəziyyət, regional təhlükəsizlik və digər istiqamətlər üzrə tərəfdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun toplantısında iştirak edib



Mayın 17-də Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Belçika Krallığının Brüssel şəhərində yerləşən NATO-nun mənzil qərargahında Alyansın Hərbi Komitəsinin "Qətiyyətli Dəstək" formatında Baş Qərargah rəisləri səviyyəsində keçirilən görüşündə iştirak edib.

Görüşdə Əfqanıstan İslam Respublikasındakı NATO-nun "Qətiyyətli Dəstək" missiyasının gedişi və əməliyyat şəraitindəki dəyişikliklərlə bağlı müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Oleq Kuznetsov:

# Petisiyaya kifayət qədər imza toplansa, Xocalı soyqırımı məsələsi Dövlət Dumasında müzakirə oluna bilər

*Mayın 17-də Beynəlxalq Mətbuat Mərkəzində Xocalıda ermənilər tərəfindən törədilmiş soyqırımın tanınması barədə petisiya ilə əlaqədar tədbir keçirilib. Rusiyalı tarixçi Oleq Kuznetsovun təşəbbüsü ilə tərtib edilmiş bu petisiya Rusiya Federasiyasının Dövlət Dumasına və Federasiya Şurasına ünvanlanıb.*

AZƏRTAC xəbər verir ki, rusiyalı tarixçi həmin tədbirdə çıxış edib. O bildirib ki, petisiya artıq 19 min nəfər tərəfindən imzalanıb. Bu imzaların 12 mini Azərbaycandan daxil olub.

O. Kuznetsov qeyd edib ki, əhalisinin sayı 9 milyon olan bir ölkə üçün bu, kiçik rəqəmdir. Onun fikrincə, sənədin Rusiya Federasiyasının Dövlət Duması tərəfindən müzakirəyə qəbul edilməsi üçün ən azı 100 min imza toplamaq lazımdır. O deyib: "100 min imza Azərbaycan əhalisinin 1 faizi deməkdir. Əgər petisiya üçün kifayət qədər imza toplanarsa, biz Xocalıda soyqırımı məsələsinin Dövlət Dumasında müzakirəyə çıxarılmasına nail ola bilərik. Bu, özlüyündə mühüm hadisədir. Dünyada bu faciə barədə mümkün qədər çox insanın məlumatlandırılması üçün bu zəruridir".

Rusiyalı tarixçi onu da qeyd edib ki, petisiyalar çox vaxt xarici dövlətlərdən alınır. O, imzaların az olmasının səbəblərinə toxunaraq deyib: "İnsanlar arasında inamsızlıq var. Onlar Dövlət Dumasının bu məsələyə münasibət bildirəcəyinə inanmırlar. Belə olan halda biz bu petisiyanı nə üçün yaradırıq? Eyni zamanda, nəzərə almaq lazımdır ki, insanların elektron media resurslarından istifadə imkanları məhduddur".

İmzaların çoxunun Lənkərandan daxil olduğunu qeyd edən tarixçi bildirib ki, yaxın vaxtlarda Gəncəyə və Mingəçevirə gedəcək, bu şəhərlərdəki universitetlərin tələbələri ilə görüşəcək.

Xatırladaq ki, 2017-ci il martın əvvəlində Oleq Kuznetsov 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə ermənilər tərəfindən Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırımın tanınması barədə petisiya hazırlayıb. RF Dövlət Dumasına və Federasiya Şurasına ünvanlanmış petisiyada bu faciənin təqsirkarlarının cinayət məsuliyyətinə cəlb edilməsi, hadisənin insanlığa qarşı cinayət və soyqırımı aktı kimi qiymətləndirilməsi barədə çağırış vardır. Bu petisiya həm faciənin soyqırımı kimi Rusiya Federasiyasının Dövlət Duması tərəfindən tanınması, həm də onu törətmiş erməni canilərin cinayət məsuliyyətinə cəlb edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

## Medallı igidlərimiz

# Cəsur PDM komandiri

*Aprelin 14-də Təlim və Tədris Mərkəzinin klubunda bayram ovqatı vardı. Geniş salonda hamı ötən ilin aprel döyüşlərinin qələbə ovqatına köklənmişdi. Tədbir təmas xəttində baş vermiş və düşmənin acı məğlubiyyətilə nəticələnmiş döyüşlərin ildönümünə həsr edilmişdi. Ön sıralarda əyləşənlər arasında həmin döyüşlərdə düşmənə qan udduran Vətən oğulları da vardı. Onlardan biri gizir Əlibaba Bayramov idi.*



Əlibaba əsgəri xidmətini başa vurduqdan bir müddət sonra yenə ordu sıralarına qayıtmaq, Vətənə xidmət etməyi özünə birdəfəlik peşə seçmək qərarına gəlir. Təxminən altı il müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edib. Nümunəvi davranışı ilə komandirlərinin və silahdaşlarının hörmətini qazanıb. Əvvəlcə tankda, sonra PDM-də sürücü-mexanik kimi xidmət edib və bu vacib texnikaların sirlərini dərindən mənimsəyib. Hazırda hər iki texnikanı mükəmməl idarə etməyi bacarır.

Gizir Bayramov hərbi hissələrimizdən birində piyada döyüş maşınının komandiridir. Bu vəzifədə o, 2015-ci ilin dekabrından xidmət edir. Təbeliyindəkilərə təcrübəli mütəxəssis kimi həmişə kömək göstərir, onların da mütəxəssis kimi yetişməyində dəyərli tövsiyələrini əsirgəmir.

- Həmin döyüşlər ərəfəsində gündəlik xidməti işimizlə məşğul idik, - gizir Bayramov xatırlayır. - Düşmən yenə mövqelərimizi, ön xəttə yaxın kənd və qəsəbələrimizi güclü atəşə məruz qoymuşdu. Dinc sakinlərə ciddi ziyan vurmuşdu. Qəflətən bizə əks-hücum barədə komanda verdilər. Biz də komandanı sonadək yerinə yetirdik. Məşğələlərdə, təlimlərdə öyrəndiklərimizi, qazandığımız vərdişləri döyüşdə gerçək qələbəmizlə sübuta yetirdik.

Gizir Bayramovun heyəti də Lələtəpə istiqamətində irəli atılmışdı. PDM-in sürücü-mexaniki müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Müşfiq Rufullayev də, tuşlayıcı-operator müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rahil Həsənov da özlərini peşəkar döyüşçülər kimi göstərməyi bacarmışdılar. Qısa zamanda düşməni döyüşçülərimiz sıxışdırıb möhkəmləndirilmiş mövqelərindən çıxarmışdılar. Bu döyüşdə Vətən oğulları Lələtəpəni azad edib Azərbaycanın üçrəngli bayrağını yüksəkliyə sancmış, döyüş tapşırığını uğurla yerinə yetirmişdilər. Ordumuzun bölmələri erməniləri məğlub edərək ətraf yüksəkliklərdə möhkəmlənmişdilər.

Həmin günlərdə gizir Bayramov da döyüş tapşırığını yerinə yetirərkən yaralanmışdı. Onun idarə etdiyi piyada döyüş maşını düşmənin basdırdığı minaya toxunaraq, zədələnmişdi. Hospitala çatdırılan giziri qayğıkeş həkimlərimiz müalicə edərək tezliklə sıraya qaytarmağı bacardılar.

Aprel döyüşlərinin ildönümünə həsr edilmiş təntənəli mərasimdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək bir daha Azərbaycan Ordusu bölmələrinin fəaliyyətini təhlil etdi, uğurlarımızın səbəblərini göstərdi. Nazir həmçinin təmas xəttində həmin qarşıdurma zamanı fərqlənmiş zabit, gizir və əsgərlərimizin bir qrupuna Vətənin mükafatlarını təqdim etdi. Gizir Əlibaba Bayramov da "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olundu.

- Vətənə xidmət hər birimizin borcudur, - gizir Bayramov deyir. - Hazırda döyüş maşınının komandiri kimi vəzifəmin icrası ilə məşğulam. Bizim PDM də tam təmir edilərək sıraya qaytarılıb. Bütün heyətimizlə Vətənə xidmətimizi davam etdiririk.

Hazırda gizir Əlibaba Bayramovun heyəti döyüş hazırlığı məşğələlərində iştirak edir, peşə vərdişlərini əvvəlki kimi həvəslə möhkəmlətməyə çalışır. Təcrübəli PDM komandiri yaxşı başa düşür ki, yenə döyüş əmri verilə bilər və hər an onu yerinə yetirməyə hazır olmaq lazımdır.

Ən qürurverici məqam ondadır ki, torpaqlarımızın bir qismi işğaldan azad olundu və düşmənə sarsıdıcı zərbə endirildi. Və bu döyüşlərdə əldə edilmiş qələbəyə görə gizir Bayramovun da iftixar hissi keçirməyə haqqı çatır. Çünki torpaqların azad edilməsində onun heyətinin də payı var.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında "Hərb oyununun qiymətləndirilməsi" üzrə işçi görüşü keçirilib

*Azərbaycan Respublikasında Silahlı Qüvvələrin Hərbi Təhsil Sisteminin müəyyən sahələrinin inkişafına yardım üzrə NATO-Azərbaycan Birgə Fəaliyyət Planına müvafiq olaraq Silahlı Qüvvələrin Hərbi Akademiyasında "Hərb oyunun qiymətləndirilməsi" üzrə işçi görüş keçirilib.*



Silahlı Qüvvələrin Hərbi Akademiyasında keçirilən hərb oyununda Amerika Birləşmiş Ştatlarının Müştərək Qüvvələr Qərargahı Kollecinin professorları Çarlz Davis, Patrik Hannum və Silahlı Qüvvələrin Hərbi Akademiyasının professor-müəllim və dinləyici heyəti iştirak edib.

İşçi görüşündə qonaqlara Hərbi Akademiyada tədris prosesinin, elmi işin təşkili və elmi kadrların hazırlanması, burada keçirilən hərb oyunu haqqında brifinqlər verilib və onları maraqlandıran suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Düşmən Ağdam istiqamətində mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mayın 16-da axşam saatlarından başlayaraq gecə ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə xəttinin Ağdam istiqamətində mövqelərimizi və müdafiəmizin dərinliyində yaşayış məntəqələrimizi müxtəlif çaplı minaatanlardan intensiv atəşə tutub.

Eyni zamanda düşmən tərəfindən tətbiq edilən döyüş pilotsuz uçuş aparatlarının keyfiyyəti aşağı olduğundan onların istifadəsi nəticəsində heç bir zərər dəyməyib.

Dərhal görülmüş cavab tədbirləri nəticəsində düşmən susdurulub, Silahlı Qüvvələrimizin döyüş texnikasına ziyan dəyməyib və şəxsi heyət arasında itki yoxdur. Atılan mərmilər əsasən boş əkin sahələri və yaşayış məntəqələrinə yaxın ərazilərə düşüb.

Müdafiə Nazirliyi bildirir ki, əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarəti altındadır.

* * *

Ermənistan tərəfi yaşayış məntəqələrimizi və mövqelərimizi atəşə tutmasını əks etdirən video və guya Azərbaycan tərəfinin itkilər verməsi barədə məlumat yayıb.

Düşmən bölmələrinin cəbhənin Ağdam istiqamətində yaşayış məntəqələrimiz və mövqelərimizi müxtəlif çaplı minaatanlardan intensiv atəşə tutması barədə Müdafiə Nazirliyi tərəfindən bu gün səhər saatlarında rəsmi məlumat verilib.

Videonu yaymaqla Ermənistan təkcə mövqelərimizi deyil, eyni zamanda yaşayış məntəqələrimizi də müntəzəm olaraq atəşə tutmasını nümayiş etdirərək dinc azərbaycanlı əhaliyə qarşı öz çirkin əməllərini davam etdirdiyini bir daha təsdiq etdi.

Müdafiə Nazirliyi bildirir ki, düşmən tərəfindən atəş nəticəsində dinc əhali, Silahlı Qüvvələrimizin şəxsi heyəti arasında itki yoxdur və döyüş texnikasına ziyan dəyməyib.

# "Minsk Qrupu həmsədrlərinin son bəyanatı simptomatik xarakter daşıyır"

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 18 may tarixli bəyanatını şərh edib.

AZƏRTAC xəbər verir ki, H.Hacıyev Azərbaycanın Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 25-ci ildönümü və Ermənistan prezidentinin parlamentdə çıxış edərək yenilənmiş Madrid prinsiplərini inkar edən açıqlamasının müqabilində Minsk Qrupunun həmsədrlərinin yalnız atəşkəs haqqında verdiyi standart bəyanatın simptomatik xarakter daşıdığını söyləyib. O bildirib ki, Azərbaycanın işğal olunmuş digər rayonlarının əhalisi kimi, 80 minə yaxın Laçın sakini 25 ildir qaçqın və məcburi köçkün vəziyyətində yaşadığı halda, rayonun işğalının 25-ci ildönümü günü bəyanatla çıxış edən Minsk Qrupunun həmsədrləri tərəfindən bu haqda heç nə deyilməməsi ədalətsiz və qeyri-obyektiv yanaşmadır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycanın suveren ərazilərində fəaliyyət göstərir və Ermənistanın gücdən istifadə edərək Azərbaycan ərazilərinin işğalı fonunda ölkəmizin müdafiəsini və mülki əhalinin təhlükəsizliyini təmin edir.

Azərbaycanın uçuş aparatlarına yaranan real təhlükəni və Azərbaycanın hava məkanının dərinliklərinə nəzarət etmək cəhdinin qarşısını almaq üçün mayın 15-də provokativ şəkildə müdafiənin ön xəttinə çıxarılmış Ermənistan hava hücumundan müdafiə qoşunlarına məxsus "OSA" zenit-raket kompleksi legitim hərbi hədəf olaraq məhv edilib.

Təəssüflər olsun ki, atəşkəsin pozulmasından narahatlıq ifadə edən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bəyanatında Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnika və şəxsi heyətin Azərbaycanın suveren ərazilərində qeyri-qanuni mövcud olması faktına yenə də göz yumulur.

Həmçinin həmsədrlərin bəyanatında Ermənistan silahlı qüvvələrinin keçən ilin aprelində olduğu kimi, cəbhənin Ağdam və Tərtər istiqamətləri boyunca sıx yaşayan mülki əhalini və mülki obyektləri mayın 16-17-də minaatanlardan və digər silahlardan intensiv atəşə tutması və sonra videogörüntülər yayaraq bunu rəsmən etiraf etməsi barədə heç nə deyilmir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğu cəbhədə gərginliyin yaranmasının və atəşkəsin pozulmasının əsas səbəbidir. Bu, hər kəsə çox yaxşı məlumdur.

Odur ki, Azərbaycanın Laçın rayonunun işğalının 25-ci ildönümü və yenilənmiş Madrid prinsiplərinin Ermənistan prezidenti tərəfindən inkar edilən gün bəyanatla çıxış edən ATƏT-in Minsk Qrupunun həmsədrləri ilk növbədə elə özlərinin hazırladığı yenilənmiş Madrid prinsiplərini rəhbər tutaraq Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməli və ATƏT-in Budapeşt Sammitinin qərarına uyğun olaraq münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında siyasi yolla həlli üçün intensiv substantiv danışıqların davam etdirilməsinə çağırış etməli idilər.

# "Vətənə xidmətimdən qürur duyuram"

*Damlalardan ümman yarandığı kimi, döyüşçülərimizin hər birinin nümunəvi xidmətindən, hazırlıq və bacarığından da ordumuz güc alır. Bu dəfə də "N" hərbi hissəsində nümunəvi xidmətilə seçilən əsgərlərimizlə ünsiyyətdə olmaq istədik.*

- Bölmələrimizdə hazırlıqlı, bacarıqlı əsgərlər çoxdur, - bizimlə söhbətində zabit Elşad Əbilov dedi. - Onlar intensiv döyüş hazırlığı məşğələlərində öz peşə vərdişlərini durmadan artırırlar. Bu yaxınlarda taborun taktiki təlimində iştirak edirdim və bizim bir əsgərimiz ilk mərmidən hədəfi məhv etməyi bacardı. Onun barəsində yazmağınızı məsləhət görərdim.

Həmin əsgərlə görüşdük. Məlum oldu ki, sərrast atışı ilə komandirlərin diqqətini cəlb etmiş əsgər Yusif Nəsirov Ucar rayonunun Məlikballı kəndindəndir, 2016-cı ilin iyulunda Vətənə əsgəri borcunu vermək üçün hərbi xidmətə çağırılıb. Öncə gənc əsgər kursunu bitirib. Döyüşçülər ixtisaslara seçilərkən ona qumbaraatan silahını etibar ediblər. Keçirilən məşğələ və təlimlərdə bu silahın taktiki-texniki xüsusiyyətlərini mənimsəyib, praktik atış vərdişlərinə yiyələnib.

- Atam Qarabağ müharibəsinin iştirakçısıdır, - əsgər Nəsirov gülümsünür. - O da qumbaraatan olub. Mən də ixtisas seçimi zamanı bu silahı seçdim və çalışdım ki, onun sirlərini yaxşı mənimsəyim. Qumbaraatanın xassələrini mənə atış rəhbərim leytenant Xəzər Cabbarlı öyrədib. Təcrübəli manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sənan Ələsgərov da əsgəri peşəyə yiyələnməkdə mənə yardımçı olub. Praktik atışlarda, təlimlərdə vərdişlərimizi daha da artırdığımız üçün sınaqlarda daha yaxşı nəticə göstərə bilirik. Əldə etdiyim nailiyyətə görə daha çox leytenant Xəzər Cabbarlıya, manqa komandirim Sənan Ələsgərova borcluyam.



Motoatıcı taborun taktiki təlimində döyüşçülər atış çalışmalarını yerinə yetirərkən zabit Elşad Əbilov da təlim meydanına gəlibmiş. Əsgər Yusif Nəsirov həmin vaxt qumbaraatandan atəş açaraq ilk mərmidən 300 metr məsafədəki hədəfi sərrast atəşlə məhv edir. Əsgər yüksək hazırlıq nümayiş etdirdiyinə görə qısamüddətli məzuniyyətlə mükafatlandırılır.

- Vətənə xidmətimdən qürur duyuram, - əsgər Yusif Nəsirov gülümsünür. - Mən də hamı kimi öz əsgəri vəzifəmi yerinə yetirməyə gəlmişəm. Mehriban bir kollektivimiz var. Komandirlərimiz də tələbkar olmaqla yanaşı, əsgərləri başa düşən insanlardır. Bir sözlə, burada hər şey ürəyimcədir. Əsgər dostlarıma gəlincə, hamımız bir Vətənin, bir torpağın övladıyıq. Əsgərliyə də doğma Azərbaycanımızın keşiyində dayanmaq üçün çağırılmışıq. Düşmən tərəfindən işğal edilmiş ərazilərimizi azad etmək üçün döyüşə də çiyin-çiyinə gedəcəyik. Aramızda dostluq olmasa, necə bir-birimizə dayaq ola bilərik?!

Atası Qismət hərbi xidmətə yola salarkən oğluna kişi kimi, alnıaçıq xidmət etməyi tövsiyə edib. Artıq 10 aydır ki, Silahlı Qüvvələrdə xidmət edən Yusif atasının öyüd-nəsihətinə sadiq olduğunu sübuta yetirib. Komandirləri ondan çox razıdırlar. Nizam-intizamlı, çalışqan döyüşçü kimi əsgər Nəsirov silahdaşlarının və komandirlərinin yanında hörmət qazanmağı bacarıb. Doğrudan da, əsl Azərbaycan əsgəri məhz belə olmalıdır!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

*Nümunəvi xidmət*

# Torpaqlarımızı müdafiə etməyə hər an hazır olan oğullarımız olub, var və olacaq!

*Bir yaz səhərinin dumanı içində, topa-topa buludları seyr edərək yolumuz səngərədi. Bu gün səngərlərimizdə duran igid oğullarımız mübarizə əhval-ruhiyyəsinə, qarşıdakı düşmənin niyyətini elə səngərdəcə boğmaq hissinə köklənibləр. Oğullarımız bu gün, Vətən qarşısında borcunu səngərdə yerinə yetirir və düşmənlərimizin bütün təxribatlarının qarşısını qətiyyətlə alırlar. Bu gün hər qarış torpağı səngər bilən igidlərimiz vardır və torpaqların müdafiəsi üçün hər an döyüşə hazırdırlar.*



Belələrindən biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nəriman Sabir oğlu İbrahimovdur.

- 6 aydır ön xətdə qulluq etməyimə baxmayaraq, burada hər daşa, hər qayaya bələdçiliyim var. Bu isə içimdəki, sözlə izah etməyə çətinlik çəkdiyim Vətən sevgisindən irəli gəlir, - deyə manqa komandiri söhbətə başladı. - Vətən həyatda hər birimiz üçün ən müqəddəs sayılan bir varlıqdır. Biz bu gün səngərdə Vətənimizin təhlükəsizliyini qoruyuruq. İllərlə yaşadığın evindən, ailəndən, yaxınlarından uzaqlaşıb Vətənin hər hansı bölgəsində xidmət etmək bəzən çətin gələ bilər insana. Vətənə xidmət çətin və məsuliyyətli olmaqla yanaşı, şərəflidir. Ancaq səngərdə xidmət etməyin də öz qaydaları var. Vətəni qorumaq üçün birinci özünü qorumalısan. Buna görə də hər addımda ayıq-sayıq və diqqətli olmalısan. Düşməni daim nəzarətdə saxlamağı bacarmalısan, adi hərəkətini belə, gözdən qaçırmamalısan. Tabeliyimdə olan şəxsi heyətə ilk olaraq bunları aşılayıram. Onlar bilməlidilər ki, arxamızda bizə güvənən ailəmiz, dostlarımız, yaxınlarımız, nəhayət, Vətənimiz var.

Manqa komandiri onu da qeyd etdi ki, burada əsgərlərə əsl dostluğun, yoldaşlığın aşılanmasında özündən böyük komandirlərə yardımçı olur: - Onlar ilk növbədə anlamalıdır ki, bu gün səngər bizim əsl evimizdi. Qışın soyuğunda, yayın istisində səngərə sığınırıq, ondan güc alırıq. Bu məkanda hər kəsin bir andı var - döyüş əmri alan kimi, düşmənə göz açmağa macal verməmək. And içmişik ki, hücum əmri alan kimi irəli atılacağıq və torpaqlarımızı işğaldan azad edəcəyik. Aprel döyüşlərində bu andımızı həyata keçirmək istəyində olduğumuzu sübut etdik. İndi də andımıza sadiqik və bütün hərbi qulluqçularımız tarixi Qələbəni təmin etməyə hazırdırlar.

Bacarıqlı döyüşçü ilə söhbətdən sonra düşüncəmə bir fikir hakim kəsilir - Azərbaycan əsgəri bu gün üstündə gəzdiyimiz torpağı qorumağa hazırdır. Ona görə ki, sabah bu torpağın altında rahat uyuyaq - sabah bizə yorğan olacaq bu torpağın üstündə yadellilər at oynatmasınlar. Nəriman İbrahimovun timsalında deyə bilərəm ki, Azərbaycan əsgəri bu torpağı gələcək nəsillərə müqəddəs əmanət kimi ötürəcək. Bəli, torpaqlarımızı müdafiə etməyə hər an hazır olan oğullarımız olub, var və olacaq!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**19 may 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da (6 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 113 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Qaymaqlı, Aşağı Əskipara kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Hacıalılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Qaraqaşlı, Kəngərli, Baş Qərvənd, Çəvahirli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz və Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Biz hərbçilərimizlə fəxr edirik"



*Aprel döyüşlərindən danışarkən illərdən bəri işğalda qalan torpaqlarımızın bir hissəsinin azad edilməsini, o döyüşlərdə şəhid olanları ehtiramla xatırlayırıq. Aprel döyüşləri qürur yerimiz, tarixi nailiyyətimizdir. Həmin aprel günlərində "Vətən sağ olsun" deyənlərin Vətən sevgisinin oğul sevgisindən uca olduğunu da gördük. Şəhidlərin tabutu üzərindəki bayrağa ehtiram göstərib sanki əzizlərinin ətrini ondan aldı analar, atalar, övladlar... "Atası kimi qəhrəman, igid övladlar böyüdəcəm", - deyənlərdən qürurlandıq. Mərd, qorxubilməz Azərbaycan xalqı "Şəhidlər ölməz, Vətən bölünməz" devizi ilə ayağa qalxdı o günlərdə...*



Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları ilə görüşüb aprel döyüşləri ilə bağlı söhbətləri qələmə aldım. Gənclərin ordumuzun aprel zəfəri ilə bağlı fikirlərini dinləmək olduqca maraqlı idi.

**Kursant Mirhəsən Həsənli** Yardımlı rayonunun Perembel kəndində anadan olub. Yaşadığı küçə və təhsil aldığı məktəb şəhid adını daşıyıb. Böyük qardaşı baş leytenant kimi ordumuzda xidmət edir.

Aprel döyüşlərində iştirak etmiş zabit qardaşının təəssüratlarını isə başqaları ilə qürurla bölüşür kursant. Mirhəsən Ali Baş Komandanın "Biz hərbçilərimizlə fəxr edirik" kəlamının hərbi peşəni seçən kursantlarda çox böyük ruh yüksəkliyi yaratmasından danışdı. "Aprel döyüşləri ordumuzun güc və bacarığını düşmənə sübut etdi. Düşmənimiz agah oldu ki, onun qarşısında əvvəlki dövrün pərakəndə ordusu yox, daha güclü, hazırlıqlı, müasir silah və texnikalarla təmin olunmuş bir ordu dayanıb."

**Kursant Vüsal Məlikovun** qardaşı isə aprel döyüşlərində əsgər kimi iştirak edib. Lerik rayonunun Almu kəndində dünyaya göz açan kursantın babası Qarabağ müharibəsi veteranıdır. Uşaq yaşlarından onun dəyərli nəsihətlərini dinləyərək böyüyüb. "Bir dəfə gəldiyimiz bu həyatda gərək elə yaşayaq ki, dönüb arxaya baxanda utanmayaq və Vətənimizə layiqli işlər görək". Babanın bu sözləri nəvəmin də həyat amalına çevrilib.

"Ali Baş Komandanımızın rəhbərliyi ilə görülən işlər sayəsində bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü, qüdrətli ordusuna çevrilib", - kursant belə deyir. "Aprel döyüşləri işğalçı Ermənistan ordusunun məhz dinc əhalimizi hədəf seçməsi ilə başladı. Lakin



aldığı cavabdan sonra düşmən silah-sursatını ataraq qaçdı. Aprel döyüşlərində ordumuzun imkanlarının az bir qismindən istifadə edilmişdi. Bu döyüşlərdə şəhid olan Muradın, Samidin, Raqufun, Rəşidin, Sənanın və digər qəhrəman oğullarımızın həyat yolu, Vətən sevgisi bizlərə nümunədir."

Kursantları dinlədikcə düşünürəm ki, müharibə dövrünün müasirləriyik. Vətən həsrəti ilə, lakin inamla yaşayan bir nəsil olaraq ağrılı-acılı dövrün şahidləri olmuşuq.

"İgid oğul dayısına oxşayar", - deyib babalarımız. **Kursant Əli Ələkbərovun** dayısı Əfqanıstan və Qarabağ müharibələrinin veteranıdır. "Uşaq vaxtı onun müharibə, döyüşlər haqqında söhbətlərini dinləməkdən doymazdıq. Bu gün o söhbətləri dinləyənlər məhz hərbi peşəni seçirlər. Qardaşım bu liseydə oxuyanda Silahlı Qüvvələrimizin yaranmasının 95 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmişdi. Tədbirdə ona təqdim olunan yubiley medalını evə gətirdi. O medalı görəndə qəti qərarımı verdim: "Bu gələcəyin hərbçisi!" deyə, "Bu qüdrətli ordunun zabiti olacam!"

"Aprel döyüşləri haqqında nə bilirsən?" sualını Əli belə cavablandırdı:

- Aprel döyüşləri Azərbaycan Ordusunun qüdrətini təsdiqlədi. Ordumuz, ümumən xalqımız böyük ruh yüksəkliyi, vətənpərvərlik nümayiş etdirdi. Aprel döyüşlərində Ermənistan məğlubiyyətlə üzləşdi. Müdafiə xəttinin yarılması, vacib yüksəkliklərin azad edilməsi bunun təsdiqidir.

Söhbətlərini həvəslə dinlədiyim kursantların "Döyüşlər başlayarsa, libasımızı səhra geyimi ilə dəyişməyə hazırıq" sözlərindən hədsiz qürur duydum. Bir daha əmin oldum ki, tariximizə, keçmişimizə bağlı olan bir gəncliyimiz formalaşıb.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Tərtər rayon ictimaiyyəti və bölgədəki hərbi hissələrin nümayəndələrinin ümumrayon toplantısı keçirilib



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tərtər rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Gənclərin milli-mənəvi dəyərlər əsasında Vətənə, xalqa, dövlətə sədaqət ruhunda tərbiyə edilməsinin aktual məsələləri" mövzusunda rayon ictimaiyyəti və bölgədəki hərbi hissələrin nümayəndələrinin iştirakı ilə ümumrayon toplantısı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Tərtər rayon Mədəniyyət Mərkəzində baş tutan toplantıda öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni ifa edilib.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov tədbiri açaraq giriş nitqi söyləyib.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani "Gənclərin milli-mənəvi dəyərlər əsasında Vətənə, xalqa, dövlətə sədaqət ruhunda tərbiyə edilməsinin aktual məsələləri" mövzusunda geniş məruzə ilə çıxış edib.

Toplantıda çıxış edənlər tədbirin əhəmiyyətindən danışıb, gənclərin milli-mənəvi dəyərlər əsasında Vətənə, xalqa, dövlətə sədaqət ruhunda tərbiyə edilməsində, xalq-ordu birliyinin daim möhkəmləndirilməsində belə tədbirlərin rolunu xüsusi qeyd ediblər.

İştirakçılar bu gün Azərbaycan oğullarının ata-babalarımızın qəhrəmanlıq yolunu şərəflə davam etdirdiklərini, Vətənin keşiyində daim ayıq-sayıq dayandıqlarını və ərazi bütövlüyümüzün bərpa edilməsi uğrunda Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bəyan ediblər.

Sonda bəstəkar Azad Zahidin A.Qurbaninin sözlərinə bəstələdiyi "Qəhrəman Tərtərim" mahnısı əsasında klip nümayiş olunub, aprel döyüşlərinə həsr olunmuş "Aprel zəfəri" filminin diskləri tədbir iştirakçılarına paylanıb.



## Azərbaycan Xalq Cümhuriyyəti - 100

# İstiqlal tariximizin şərəfli səhifəsi

*Binəqədi Came məscidi yerli camaat üçün təkcə müqəddəs məkan, ibadətgah kimi deyil, həm də düşmən qarşısında əyilməyən, düşmən mərmisindən dağılmayan alınmaz qala kimi əzizdir. 1918-ci ildə bolşevik-daşnak qüvvələrinin atdığı top mərmisi əsrlərin yadigarı olan məscidə tuşlansa da, onu uçura bilməyib. Məscid minarəsinin şimal divarında həmin topun izi hələ də qalmaqdadır. Binəqədililər onu qanlı-qadalı günlərin acı xatirəsi kimi qoruyub saxlayırlar.*

Həmin qanlı-qadalı günlər 1918-ci ilin yay aylarına təsadüf edir. Martda şəhərdə misli görünməmiş qırğınlar törədən ermənilər nəyin bahasına olursa-olsun, Bakını əldə saxlamağa çalışırdı. Bu məqsədlə Bakıətrafı kəndlərə hücum planı hazırlanırdı. Plana uyğun olaraq qatı daşnak Stepan Şaumyanın başçılıq etdiyi hərbi birləşmələr Bakının şimal hissəsindən Binəqədi kəndi istiqamətində hücuma keçdilər. Düşmənin qarşısını yerli camaat Yanardağ (Keyrəki) istiqamətində aldı. Məqsəd Qafqaz İslam Ordusu gələnə qədər düşməni kəndə buraxmamaq idi. Buna görə də qadın və uşaqları qonşu kəndlərə aparan binəqədililər düşmənlə üz-üzə dayanmaqda qərarlı idilər. Qızğın döyüşlər gedirdi. Bir tərəfdə təpədən-dırnağa qədər silahlanmış və mükəmməl təlim görmüş bolşevik-daşnak hərbi qüvvələri, digər tərəfdə isə adi silahlarla silahlanmış yerli camaat. Hadisə şahidləri sonralar danışırdılar ki, döyüşdən qayıdanların silah tutmaqdan əlləri, qolları yara bağlamışdı. Kim yaralanırdısa, dərhal bir parça tapıb yarasını sarıyır və yenidən döyüşürdü. Geri çəkilməyi heç kim ağlına belə gətirmirdi.

Binəqədi ətrafında günlərlə davam edən ağır döyüşlərdə xeyli sayda insan şəhid oldu. Yerli sakinlər Qafqaz İslam Ordusu gələnə qədər düşmənin qarşısını qəhrəmancasına almağı bacardılar. Bu döyüşlərdə binəqədililərlə yanaşı, kürdəxanılı qoçu Adilin dəstəsi də misilsiz igidlik göstərdi.

Bir neçə gündən sonra gözlənilən kömək gəldi. Artıq Qafqaz İslam Ordusu Binəqədiyə yaxınlaşırdı. Ordunun Biləcəridən hücuma keçəcəyini güman edən bolşevik-daşnak qüvvələri bu bölgədəki Yanardağ və Binəqədi yüksəkliklərini də tutmağa başladı. Qafqaz İslam Ordusunun komandanlığı 22 iyul 1918-ci ildə Bakıya planlaşdırılan hücumda bu bölgənin tutulmasına mane olmağı qərara aldı. Bu işdə onlara yerli camaat da kömək göstərdi. Bakının şimalında Binəqədi kəndi yaxınlığındakı yüksəkliyi 364 metr olan Yanardağ (Keyrəki) və yüksəkliyi 311 metr olan Binəqədi təpələri uğrunda döyüş başlanır.

Məhz bu zaman bolşevik-daşnak qüvvələrinin atdığı top mərmisi Binəqədi məscidinin minarəsinə tuş gəlir.

Tutduğu əlverişsiz mövqe 29-cu taborа qarşıya qoyulmuş tapşırığı yerinə yetirməyə mane olur. Düşmənə əlavə qüvvələrin gəlməsi səbəbindən döyüşən əsgərlər yalnız təpənin ətəklərində dayanmaqla kifayətlənirlər.

31 avqusta qədər cəbhədə vəziyyət dəyişməz qalır. 13-cü Qafqaz alayı ilə, 38-ci alayın 1-ci və 26-cı taborları səhər erkən hərəkətə keçir. Bu hücum planlı şəkildə baş tutur. Məhz bundan sonra hiyləgər düşmənin müqaviməti sarsılır. Yanardağ ətrafında bolşevik-daşnak hərbi qüvvələri tərəfindən mövqelərinin müdafiəsi üçün çəkilən üç sıralı məftillər səhər saat 6:30-da kəsilərək ərazi tamamilə işğalçılardan təmizlənir. Bu artıq qələbəyə doğru gedən yolun başlanğıcı idi. Binəqədi kəndi istiqamətində qaçmağa çalışan düşmən əsgərləri məhv edilir.

Bu həlledici döyüşdə 1 ingilis zabiti və 150 əsgər (əksəriyyəti ingilis olmaqla) öldürüldü, 3 rus və 2 ingilis zabiti ilə 52 ingilis əsgəri əsir götürüldü. 1 ingilis zabiti ilə çoxu ingilis olan 150 sıravi məhv edildi.

Bu statistik məlumatlar onu sübut edir ki, Bakını işğal etmək təkcə erməni daşnakları və rus bolşeviklərinin deyil, həm də o zaman Bakıda yerləşən ingilis qoşunlarının da əsas məqsədi olub. Binəqədi döyüşləri ilə bağlı ingilislərin Bakı cəbhəsindəki qoşunlarının komandanı general Denstervilin Böyük Britaniya hökumətinə yazdığı raportu da dediklərimizi bir daha təsdiq edir.

Binəqədi döyüşündə Qafqaz İslam Ordusu 14 pulemyot, 100 ədəd top mərmisi və 70 qutu tüfəng güllesi ələ keçirsə də, itkiləri də az olmadı. Belə ki, türklərin 13-cü alayından 3 zabit şəhid oldu, 2-si yaralandı. Əsgərlərdən 20 nəfər şəhid oldu, 55-i yaralandı. Həm şəhid olanların, həm də yaralananların arasında binəqədililər də az deyildi.

Bu gün paytaxtımızda Şəhidlər xiyabanı yaxınlığında türk şəhidlərinin xatirəsinə ucalan abidəni ziyarət edərkən Bakının azad olunması uğrunda canlarından keçən türk mehmetçikləri ilə yanaşı, azərbaycanlıların da adları həkk olunmuş lövhələrə rast gəlirik. Binəqədi döyüşlərində qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan insanlar gələcək nəsillər üçün qürur və igidlik nümunəsidir.



**Orxan İSAYEV**

Ordu və cəmiyyət

# Söz də bir silahdır

**- Umud müəllim, rəhbərlik etdiyiniz fond hansı istiqamətlərdə fəaliyyət göstərir? Bu barədə oxucularımıza məlumat verməyinizi xahiş edirəm.**

- Əvvəlcə qeyd edim ki, fondumuz respublikamızın müstəqilliyinin ilk vaxtlarında - 1992-ci ildə dövlət qeydiyyatına alınan ilk müstəqil beynəlxalq qeyri-hökumət təşkilatlarından biridir. Fond üç istiqamətdə - media və vətəndaş cəmiyyətinin inkişafı, sülhməramlı aksiyalar və konfliktologiya, qaçqınlar, məcburi köçkünlər və icma problemləri istiqamətlərində iş aparır. İllərdir çözülməyən Qarabağ probleminin həllində media mənsublarının iş birliyini və beynəlxalq jurnalistikanın dəstəyini təmin etmək təşkilatımızın əsas vəzifələrindən biridir. Bu məqsədlə saysız-hesabsız konfranslar, dəyirmi masalar və görüşlər keçirmişik. Qarabağ problemini, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsinin dəhşətlərini, qaçqınların və məcburi köçkünlərin üzləşdikləri məşəqqətləri əks etdirən xeyli kitab, broşüra və buklet çap edilməsində, sənədli filmlərin, video materialların hazırlanmasında yaxından iştirak etmişik. Keçən il fondun və ANAMA-nın təşəbbüsü ilə Azərbaycanda akkreditə olunan hərbi attaşelər cəbhə bölgəsində ermənilər tərəfindən atılan, istifadəsi qadağan edilən top mərmisinin düşdüyü əraziyə baş çəkdilər. 11 ölkədən 20-dək hərbi mütəxəssisin gözü qarşısında istifadəsi qadağan olunan ağ fosforlu top mərmisi xüsusi metodologiya vasitəsilə zərərsizləşdirildi. Həmin əraziyə ATƏT-in monitorinq qrupu da baxış keçirdi. Xatırladım ki, ötən il aprelin əvvəllərində təmas xəttində yaşanan gərginlik zamanı ermənilər Tərtərin Əskipara yaşayış məntəqəsinə kimyəvi mərmi atdılar. Xoşbəxtlikdən mərmi əkin sahəsinə düşmüşdü. Onu da əlavə edim ki, bu ağ fosforlu top mərmisi günəş işığında alışır. Ondan çıxan dumanlı hava ətrafdakı bütün canlılara həyati təhlükə törədir. Hazırda həmin mərminin düşdüyü ərazinin bir müddət əkilib-becərilməsi qadağan edilib. Hadisə ilə bağlı fondumuzun əməkdaşlarının hazırladığı video-sujet Əl-Cəzirə televiziyasında yayımlanıb.

**- Azərbaycan Prezidentinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı qərarı doğma yurd yerlərimizə qayıdışın başlanğıcı idi. Nəhayət, Umud müəllimin də ata-baba yurduna - Füzuliyə, doğma kəndi Aşağı Əbdürrəhmanlıya qayıdacağı günün həsrətinə son qoyuldu...**

- Ən əvvəl onu deməliyəm ki, Azərbaycan Prezidenti

*Rubrikamızın qonağı Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Umud Mirzəyevdir.*



cənab İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpa olunması ilə bağlı sərəncamı cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaratdı. 2016-cı ilin aprelində Silahlı Qüvvələrimizin uğurlu əks-həmlə əməliyyatı zamanı kəndin yaxınlığındakı Lələtəpə yüksəkliyi erməni işğalçılarından azad edildi və bununla da dinc əhalinin öz doğma yurduna qayıtması üçün zəmin yarandı. Dövlətimizin başçısı bu sərəncamı imzalamaqla Cocuq Mərcanlıya qayıtmaq istəyən yüzlərlə ailənin arzusunu reallaşdırdı. İnanırıq ki, işğal altındakı torpaqlarımız azad olunacaq və həmin ərazilərdə dövlət bayrağımız dalğalanacaq. Bəli, bu yol Cocuq Mərcanlıdan başladı.

Ordumuz güclüdür, bizim ordumuz ən yüksək səviyyədə döyüş hazırlığına malikdir. Yetər ki, Ali Baş Komandan əmr etsin. Qəhrəman hərbçilərimiz düşməni məhv etməyə, erməni işğalçılarını torpaqlarımızdan qovmağa hər an hazırdır. Cocuq Mərcanlı kəndinin tarixi doğulub boya-başa çatdığım kəndin - Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndinin tarixi ilə oxşardır. O kəndi düşmən neçə illər idi ki, atəş altında saxlayırdı.

Bu gün Cocuq Mərcanlıya dönmək istəyən insanların sayı da getdikcə artmaqdadır. Həmin kənddə yaşamaq üçün edilən müraciətlər bunu deməyə bizə əsas verir. Hətta Azərbaycan jurnalistikasının tanınmış nümayəndələri, hörmətli professorlar Cahangir Məmmədli və Nəsir Əhmədli bildiriblər ki, zaman-zaman oraya gedərək orta məktəblərdə şagirdlərlə görüşlər təşkil etsinlər.

Biz yurd yerlərimizə dönəcəyimiz günün əhval-ruhiyyəsi ilə yaşayırıq. Qarabağ camaatı torpağa, yurda bağlı insanlardır. Mən o yerlərdə böyümüşəm. Bu insanlar nə qonşusu, nə də kənar şəxslərlə heç zaman konflikt hissi ilə yaşamayıblar.

**- Şuşanın işğalından 25 il ötdü. Xalqımız 25 ildir ki, Şuşa həsrətilə yaşayır...**

Şuşanın işğalından üç gün əvvəl - mayın 5-də xarici jurnalistlərlə Şuşaya getmişdim. Mən o zaman "Ədəbiyyat və incəsənət" qəzetində elm, publisistika və məktublar şöbəsinin müdiri idim. Bu üç gün ərzində Şuşanın işğal olunacağını heç vaxt təsəvvürümə gətirməzdim. Mənim tərcümeyi-halımda Şuşanın işğal olunduğu gün - mayın 8-i ən kədərli bir gündür. Düşmən birdəfəlik anlamalıdır ki, bu gün işğal altında saxladıqları Şuşa, Laçın, Ağdam, Füzuli və digər torpaqlarımız Azərbaycanın tarixi torpaqlarıdır. Onlar orada müvəqqətidirlər. Azərbaycan xalqı öz qanuni torpaqlarının sahibi olacaq. Ötən il ordumuzun aprel zəfəri, bu il Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Prezidentin sərəncamı torpaq, yurd həsrətlilərimizin qəlbində ümid çırağını daha da alovlandırdı.

**- Bəs aprel döyüşləri bizə hansı dərsləri öyrətdi?**

- Aprel döyüşləri gedən zaman məni bir məqam daha çox qürurlandırdı. Gənclər, keçmiş döyüşçülər, qəlbi Vətənlə döyünən insanlar döyüş bölgələrinə yollanırdılar. Mən də aprel döyüşləri gedən müddətdə səngərlərdə ordumuzun qorxmaz, cəsur oğullarının yanında oldum. Goranboy, Tərtər, Ağdam, Füzuli, Beyləqan rayonlarında əhali ilə birlikdə ordumuzun aprel zəfərinin sevincini yaşadıq. Həmin günlərdə xalq Ali Baş Komandanın döyüş əmrini gözləyirdi. Bizim bir olmağımız, bütöv olmağımız bütün qələbələrimizin rəhnidir, mayasıdır. Ordumuzun aprel qələbələri düşmənə onu göstərdi ki, qüdrətli Azərbaycan dövləti var. Onun yenilməz ordusu, qarşısı alınmaz Azərbaycan əsgəri var. Ona görə də Ermənistan rəhbərliyi nə qədər ki, gec deyil, öz məkrli niyyətindən əl çəkməli, işğalçılıq siyasətinə birdəfəlik son qoymalıdır.

**- Atanızı doğma yurdda - Aşağı Əbdürrəhmanlıda torpağa tapşırdınız. Bir mənəvi borc olaraq bu məsuliyyətli addımı, yəqin ki, ordumuza güvənərək atmısınız.**

- Rəhbərlik etdiyim Beynəlxalq Avrasiya Mətbuat Fondunun əsas missiyası barışa söykənir, sülhü dəstəkləyir. Bilirsiniz, insanın bağlı olduğu dəyərlər var. Atam son dərəcə zəhmətkeş, elinə, obasına, torpağına hədsiz bağlı bir insan idi. Ömrünün son üç ilini ağır xəstə yatdı, kəndimizdə dəfn edilməsini bizə vəsiyyət etdi. Bizim kəndimiz də erməni faşistlərinin dağıtdığı, viran qoyduğu yurd yerlərimizdəndir. Təsəvvür edin, qəbiristanlığımız güllələnmiş məzarlıqlar məbədgahıdır. Onun bir tərəfində bizim ordu bölmələri keşik çəkir, digər tərəfində isə işğalçı Ermənistan silahlı qüvvələri dayanır. Buradakı məzar daşları erməni vandalları tərəfindən dağıdılıb, güllələnib. Ötən il dekabrın 8-də gecə saat 8-9 radələrində əsgərlərimizin də köməkliyi ilə atamı dəfn etdik. Kəndin ordumuzun nəzarətində olan hissəsində 17 quyudan ibarət kəhriz var. Nəzərdə tutmuşuq ki, həmin quyuları istifadəyə yararlı vəziyyətə gətirək. Qoy əzizlərinin məzarlarını ziyarətə gələn insanlar, həmçinin, hərbçilərimiz o kəhrizlərdən istifadə etsinlər.

**- Azərbaycan mediasında informasiya təhlükəsizliyi hansı səviyyədə təmin olunur?**

- Həmişə çıxışlarımda, qeydlərimdə bir məsələni xüsusi vurğulamışam ki, bu gün Azərbaycan jurnalistinin məsuliyyəti heç də Azərbaycan əsgərinin məsuliyyətindən az deyil. İnformasiya məkanındakı səngərimiz daha artıq məsuliyyəti olmağı tələb edir. Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, psixoloji müharibənin tərkib hissəsi olan informasiya müharibəsində yalan, hədələmə, ideoloji təxribat kimi texnologiyaların köməyi ilə bir ölkə digər ölkənin apardığı siyasəti gözdən salmağa, xalqla ordu arasında nifaq salmağa çalışır, bir sözlə, insanlar arasında dövlətə inamsızlıq yaratmaq üçün dəridən-qabıqdan çıxır.

**Haşiyə. Erməni mətbuatının Azərbaycanla bağlı yaydıqları yalan informasiyaların bəzən qəzetlərimizin səhifələrinə yol tapmasına nə ad vermək olar? Məsələn, bu ilin noyabrında (2015-ci ilin noyabrı nəzərdə tutulur - L.Hüseynova) erməni mətbuatı belə bir yalan uydurmuşdu. Guya Azərbaycan Ordusu Rusiyanın yük maşınına atəş açıb. Bu yalan informasiya Azərbaycan Müdafiə Nazirliyi tərəfindən dərhal təkzib edildi.**

Mətbuat Şurası informasiya təhlükəsizliyi sahəsində uzun illərdi ciddi işlər aparır. 2014-cü ilin avqustunda cəbhədə yaranan gərginliklə əlaqədar ölkənin media qurumlarında informasiya təhlükəsizliyi ilə bağlı vacib olan məsələlər gündəmə gətirildi. Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin jurnalistlərlə görüşü oldu. Prezidentimiz cənab İlham Əliyev informasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müvafiq sərəncam imzaladı. Həmin sərəncamda KİV-də və internet saytlarında, o cümlədən sosial şəbəkələrdə cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən məlumatların mütəmadi monitorinqinin keçirilməsi və "Dövlət sirri haqqında" Qanuna görə dövlət sirri təşkil edən məlumatları yayan şəxslərin qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunması nəzərdə tutulub.

Məhz biz jurnalistlər Azərbaycanın haqq səsini dünyaya çatdırmalı, antiazərbaycan təbliğatı aparanlara tutarlı cavablar verməliyik. Bütün bunlar ölkənin infomasiya təhlükəsizliyinin qorunmasına xidmət edən məqamlardı. Lakin bizdən tələb olunan əsas məqamlardan biri vətəndaş mövqeyidir. Bax biz o məqamı heç zaman unutmamalıyıq, daxilimizdə senzorumuz, təlimatçımız olmalıdır. Təkcə informasiyanı verməklə iş bitmir, vətəndaşı olduğun ölkənin milli maraqlarının qorunması daha vacibdir. Elə informasiyalar var ki, cəmiyyətdə xoşagəlməz fəsadlar törədə bilər. Alman filosofu Fridrix Nitsşenin dediyi kimi: "Bəzən bir söz də fırtına qopara bilər".

**- Beynəlxalq Avrasiya Mətbuat Fondunun orduyla əməkdaşlığı varmı?**

- Qarabağ müharibəsinin ən qızğın vaxtlarında respublikanın tanınmış şair və yazıçılarının, ziyalılarının, elm, incəsənət xadimlərinin cəbhəyə səfərlərini, döyüşçülərlə görüşlərini təşkil etmişik. Demək olar ki, orduyla gündəlik təmaslarımız olur. Hər ay bizim təşkilatın təşəbbüsü ilə xarici ölkə jurnalistləri Azərbaycana gəlir. Biz onları cəbhə bölgələrinə də aparırıq. O jurnalistlər düşmənlə yaxın ərazilərdən informasiya əldə edirlər. Bütün bunların hamısı, əlbəttə, ordumuzla əməkdaşlığın nəticəsində baş tutur. Tərtər rayonunda peşə təlim mərkəzimiz fəaliyyət göstərir. Orada ölkə və xarici jurnalistlərin təhlükəli zonalarda fəaliyyət göstərmələri ilə bağlı mütəmadi təlimlər keçiririk. Buraya ordu mütəxəssisləri də cəlb edilir və onlar dəyərli məsləhətlərini gənc jurnalistlərlə bölüşürlər.

Bu gün dövlətimizin, ordu rəhbərliyinin apardığı məqsədyönlü işlər cəmiyyətimizdə çox müsbət qarşılanır.

**- Umud müəllim, əsgər və zabitlərimizə nə arzulardınız?**

- Demək olar ki, mən hər zaman hərbçilərimizlə bir yerdəyəm. Arzu və istəklərimi onlara çatdırıram: Birliyimiz, həmrəyliyimiz Böyük Qələbəmizi, doğma torpaqlarımıza, Şuşamıza, Qarabağımıza qovuşacağımız günü yaxınlaşdırır. Vətənin müdafiəsində dayanan hər kəsə cansağlığı diləyirəm. Sizdən Qələbə müjdəli xəbərlər gözləyirik. Azərbaycan xalqı müdrik Ali Baş Komandanına və onun əsgərinə güvənir.

**- Müsahibəyə görə çox sağ olun.**

**Söhbəti apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

BAKU 2017
4th Islamic Solidarity Games
12 – 22 May 2017

# "Gücümüz həmrəylikdədir!"

## Medallarımızın sayı 100-dən artıqdır

*Bakıda IV İslam Həmrəyliyi Oyunları davam edir. Yüksək səviyyədə təşkil edilmiş yarışlar barədə dünya və iştirakçı ölkələrin kütləvi informasiya vasitələrində müsbət fikirlər yer almaqdadır.*

AZƏRTAC xəbər verir ki, İtaliyanın "Notizie Geopolitiche" portalında "Azərbaycan. İslam Həmrəyliyi Oyunları. Multikulturalizmin gücü" başlıqlı məqalə dərc olunub. Məqalədə "Azərbaycanın Mərkəzi Cənubi İtaliyada dostları" assosiasiyasının siyasi analitiki Fortunato Materazzonun fikirlərinə istinadən Azərbaycanın həm müsəlman ölkələri arasında dialoqa, həm də İslam dünyasının Qərb ilə dialoquna töhfə verən, müxtəlif mədəniyyət və dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasını təmin edən müsbət multikulturalizm nümunəsi olduğu bildirilir.




Üçtəkanla tullanma yarışında təmsilçimiz Nazim Babayev 17,15 metr nəticə ilə atletika yarışlarında ölkəmizə yeddinci qızıl medalı qazandırıb.

F57 kateqoriyasında kürəitələmə yarışlarının finalında paralimpiyaçı atletimiz Samir Nəbiyev bütün rəqiblərini üstələyərək çempionluğunu rəsmiləşdirib. Lövhəatma yarışında da 45,17 metr nəticə ilə Samir Nəbiyev özünün ikinci qızıl medalını qazanıb.

Atletika yarışlarında növbəti medal paralimpiyaçımız Oloxan Musayevdən gəlib. Kişilər arasında kürəitələmə yarışında (F56 kateqoriyası) atletimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İslamiadada Azərbaycanın aktivinə növbəti qızıl medalı yazdırıb. O, kişi paralimpiyaçılar arasında T12 kateqoriyasında 100 metr məsafəyə qaçış yarışında atletimiz Elmir Cəbrayılov məsafəni 11,14 saniyəyə qət edərək qızıl medal qazanıb.

Növbəti qızıl medalı yığmamıza Yelena Çebanu gətirib. O, paraatletika yarışlarında qadınlar arasında 100 metr məsafəyə qaçışda rəqiblərini qabaqlayaraq finiş xəttini birinci keçib.

T11 kateqoriyasında 100 metr məsafəyə qaçış yarışlarında Nurlan İbrahimov da qızıl medala sahib olub. Elçin Muradov yarışda ikinci pillədə qərarlaşıb.

Mayın 16-da IV İslam Həmrəyliyi Oyunlarının taekvando yarışlarına start verilib.

Yarışda 57 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan təmsilçisi Yaprak Eriş finalda türkiyəli Durdane Altuneli 5:4 hesabı ilə məğlub edərək "Bakı-2017"-nin qızıl medalını qazanıb. Digər qadın taekvandoçumuz Patimat Abakarova (49 kq) da "Bakı-2017"-nin qızıl medalına yiyələnib.

68 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Ayxan Tağızadə də IV İslam Həmrəyliyi Oyunlarının çempionu olub. 80 kiloqram çəki dərəcəsində Milad Beigi Hərçəqani də finalda türkiyəli Yunus Sarını 9:5 hesabı ilə məğlub edərək çempion adını qazanıb.

+87 kiloqram çəki dərəcəsində mübarizə aparan Radik İsayev finalda özbəkistanlı Dmitri Şokinə qalib gələrək qızıl medala sahib olub. Görüşün əsas vaxtı 8:8 hesabı ilə yekunlaşıb. Qalibi müəyyən etmək üçün oynanılan əlavə vaxtda rəqibini qızıl xalla məğlubiyyətə uğradan R.İsayev IV İslam Həmrəyliyi Oyunlarının çempionu adını qazanıb.

İdmançımız Ramin Əzizov (87 kq) finalda iranlı Əhməd Məhəmmədiyə 16:14 hesabı ilə qalib gələrək İslamiadada Azərbaycan taekvandoçularının aktivinə altıncı qızıl medalı yazdırıb. Bütövlükdə taekvandoçularımız İslamiadada 6 qızıl, 2 gümüş və 1 bürünc medala sahib olublar.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final qarşılaşmasına baxıblar.




Qalib idmançılara medalları dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim edib.

Azərbaycan millisi "Bakı-2017"-nin güləş yarışlarında da uğurla çıxış edir. 98 kiloqram çəki dərəcəsində mübarizə aparan yunan-Roma güləşçimiz Orxan Nuriyev qızıl medal uğrunda görüşdə qırğızıstanlı Uzur Juzupbekov ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə Orxan Nuriyev rəqibini 5:0 hesabı ilə məğlub edərək "Bakı-2017"-nin çempionu olub.

66 kiloqram çəki dərəcəsində mübarizə aparan digər Azərbaycan idmançısı Kamran Məmmədov milli komandamızın aktivinə növbəti qızıl medalı yazdırıb. K.Məmmədov həlledici mərhələdə Qırğızıstan güləşçisi ilə qarşılaşıb. Görüş vaxtından əvvəl 9:0 hesabı ilə Azərbaycan pəhləvanının xeyrinə başa çatıb.

75 kiloqram çəki dərəcəsində ilk Avropa Oyunlarının qızıl medalçısı Elvin Mürsəliyev finalda Türkiyə idmançısı Furkan Bayrak üzərində qələbə qazanaraq millimizin aktivinə 54-cü qızıl medalı yazdırıb.

Nəhayət, yunan-Roma güləşi yarışlarında Azərbaycan millisinin aktivinə sonuncu qızıl medalı 85 kiloqram çəki dərəcəsində İslam Abbasov yazdırıb. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmada İslam Abbasov Türkiyə təmsilçisi Ali Cengizi 3:1 hesabı ilə məğlub edib.

Ümumilikdə yunan-Roma güləşi üzrə Azərbaycan pəhləvanları yarışları 4 qızıl, 1 gümüş və 3 bürünc medalla başa çatdırıblar.

Xoşdur ki, bu növdə Mərkəzi Ordu İdman Klubunun üzvləri də yüksək nəticələr əldə ediblər. 80 kiloqram çəki dərəcəsində leytenant Rafiq Hüseynov final görüşündə İran idmançısı Yusif Qaderianla qarşılaşıb və İslamiadanın gümüş medalını qazanıb.

59 kiloqram çəki dərəcəsində mübarizə aparan digər ordu təmsilçisi Murad Məmmədov isə üçüncü yer uğrunda İordaniya güləşçisi Mostafa Alqadenidən üstün olaraq bürünc medala layiq görülüb.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının futbol yarışları da maraqlı idman mübarizəsi şəraitində keçir. Azərbaycan millisi əzmkarlıq nümayiş etdirərək yarımfinal mərhələsində "Dalğa Arena"da Əlcəzair yığması ilə üz-üzə gəlib. Oyun 2:0 hesabı ilə Azərbaycan millisinin xeyrinə başa çatıb. Bununla da Azərbaycan millisi "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının futbol yarışının finalına vəsiqə qazanıb.

Oyunların beşinci günündə medal qazanan idmançılarımızla "Zəfər günləri" çərçivəsində növbəti görüş mayın 18-də Azərbaycan Milli Olimpiya Komitəsində təşkil olunub. Görüşdə MOK-un və müxtəlif idman federasiyalarının rəsmiləri, Milli Məclisin deputatları, qalib idmançılar və onların ailə üzvləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.



MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək Azərbaycan idmançılarının qazandıqları uğurlardan danışıb. Atletlərimizin mübarizə ruhunun yüksək olduğunu vurğulayan vitse-prezident deyib: "İdmançılarımızın bu uğuru Azərbaycanın idman tarixinə qızıl hərflərlə yazılacaq. Yarışlarda əhalisinin sayı bizdən çox olan ölkələr təmsil edilirlər. Ancaq Azərbaycan bu ölkələr sırasında öndədir. Bu amil, eləcə də IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın idman ölkəsi olduğunu bir daha sübut edir".

Azərbaycan milli komandası boks yarışlarında da uğurla mübarizə apararaq İslamiadanın mükafatlarına sahib çıxıb. 60 kiloqram çəki dərəcəsində çıxış edən Cavid Çələbiyev həlledici görüşdə iraqlı Ammar Karbalai ilə qarşılaşıb. Görüşdə 5:0 hesabı ilə qalib gələn boksçumuz "Bakı-2017"-nin çempionu olub.

91 kiloqram çəki dərəcəsində mübarizənin finalında qalib gələn Teymur Məmmədov Azərbaycanın İslamiadada 55-ci qızıl medalının müəllifi olub. Olimpiya mükafatçımız Teymur Məmmədov həlledici mərhələdə türkiyəli Burak Akşinlə görüşdə 3:2 hesabı ilə qələbə qazanıb.

IV İslam Həmrəyliyi Oyunlarının boks yarışlarının sonuncu qızıl medalına Azərbaycan idmançısı Məhəmmədrəsul Məcidov sahib olub. 91 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizənin həlledici qarşılaşmasında 4:1 hesabı ilə qalib gələn Məhəmmədrəsul Məcidov boks millimizin aktivinə İslamiadanın üçüncü qızıl medalını əlavə edib. Azərbaycan boksçuları İslamiadada 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazanıblar.

Qadın voleybolçularımız da İslamiadada uğurla yarışıblar. Finalda Türkiyə yığması ilə üz-üzə gələn xanımlarımız 3:1 hesabı ilə qardaş ölkənin voleybolçularına qalib gəliblər.

Ümumi medalların sayına görə Azərbaycan millisi 59 qızıl, 33 gümüş və 24 bürünc (cəmi 116) medalla komanda hesabında hələlik ikinci yerdədir. Birinci yerdə qərarlaşmış Türkiyənin 60 qızıl, 52 gümüş, 43 bürünc (cəmi 155) medalı var.

**"Azərbaycan Ordusu"**

# “Ermənistan ordusunda qeydə alınan döyüş və qeyri-döyüş itkilərinin sayı 50-yə yaxındır”

Daxili ictimai-siyasi vəziyyətin gərginləşməsindən və cəmiyyətin son zamanlar onsuz da nüfuzdan düşmüş orduya qarşı nifrətinin artacağından ehtiyat edən Ermənistanın hərbi-siyasi rəhbərliyi orduda baş verən ölüm hallarının sayını təhrif etməklə əvvəlki illərdə olduğu kimi, həqiqəti ölkə ictimaiyyətindən gizlətməkdə davam edir.

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirlikdən deyiblər ki, aparılan araşdırmalara əsasən, 2017-ci ilin yanvarından hazırkı vaxta qədər Ermənistan ordusunda döyüş və qeyri-döyüş itkilərinin sayı rəsmi şəkildə göstərildiyi kimi 26 deyil, 50 nəfərə yaxındır. Bunu sübut etmək üçün ordudakı itkilərlə bağlı cari il ərzində Ermənistan KİV-lərinin dərc etdiyi məlumatları izləmək kifayət edər. Hələ bu da Ermənistan ordusundakı itkilər barədə tam həqiqəti əks etdirmir. Nəzərə alsaq ki, işğal olunmuş ərazilərimizdə yaşayan ermənilərdən olan çağırışçılar və buraya dünyanın müxtəlif qaynar nöqtələrindən cəlb edilən erməni əsilli muzdluların qeydiyyatı aparılmır, bu rəqəm xeyli dərəcədə artıqdır.

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş yarışın qalibləri mükafatlandırıldı

*Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Eldar Harun oğlunun xatirəsinə həsr olunmuş bölüklər arasında yüngül atletika birinciliyi keçirildi.*

Birincilikdə 9 komanda iştirak edirdi. Mövcud qaydalara əsasən, idmançılar 4 mərhələdən - 100 və 2000 metrə qaçış, uzununa və hündürlüyə tullanma mərhələlərində güclərini sınadılar.

Mərhələ yarışları başa çatdıqdan sonra Hərbi liseyin idman rəisi Fərhad Əliyev nəticələri elan etdi. Məlum oldu ki, 8-ci bölüyün komandası daha yaxşı hazırlıq nümayiş etdirərək yarışın qalibi olub. İkinci yerə 9-cu bölüyün, 3-cü yerə isə 5-ci bölüyün komandaları yüksəliblər.

Şəxsi birincilikdə isə hündürlüyə tullanma mərhələsində kursant Əfsər Səfiyev, uzunluğa tullanmada kursant Təbriz Əzizov, 100 metr məsafəyə qaçış mərhələsində Kamil Şükürov, 2000 metr məsafəyə qaçışda isə kursant Mirrəfail Həsənli ən yüksək nəticələr göstəriblər.

Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən polkovnik Elman Namazov bildirdi ki, məktəbimizdə Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsinə həsr olunmuş idman yarışlarının keçirilməsi artıq ənənə şəklini alıb. "Belə tədbirlərin keçirilməsinin böyük əhəmiyyəti var. Həm Milli Qəhrəmanlarımıza böyük ehtiram göstərilir, həm də kursantlarımızın vətənpərvər ruhda tərbiyə olunmasına təkan verilir. Qalib komandaları təbrik edir, uğurlar arzulayıram. Ümid edirəm ki, siz qarşıdakı turnirlərdə daha da yaxşı nəticələr göstərərək fiziki hazırlığınızı daim artıracaqsınız."

Sonra həm komanda birinciliyində, həm də şəxsi birincilikdə qalib gələnlər fəxri fərmanlarla, həm də medallarla mükafatlandırıldı. Yarışın keçici kuboku isə 8-ci bölüyün komandasına təqdim olundu.



**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# İran mətbuatı Azərbaycan Ordusunun uğurundan yazır

İranın "Tasnim news" xəbər agentliyi Azərbaycan Ordusunun Ermənistanın hava hücumundan müdafiə kompleksini vurması barədə məlumat yayıb.

Məlumatda bildirilir ki, Azərbaycan Ordusu cəbhənin Füzuli-Xocavənd istiqamətində Ermənistanın "OSA" tipli hava hücumundan müdafiə sistemini və onun şəxsi heyətini məhv edib.

Azərbaycanla Ermənistanın müqayisə edildiyi məlumatda Azərbaycanın hərbi büdcəsinin Ermənistanın bütövlükdə dövlət büdcəsindən çox olduğu diqqətə çatdırılır.

**AZƏRTAC**

*Hərbi ənənələr, yeniliklər*

# “Vena” artilleriya topu



Özüyeriyən 120 mm çaplı 2C31 "Vena" artilleriya topu Rusiyanın hərbi zavodlarından birində hazırlanıb.

PDM-3 üzərində quraşdırılmış "Vena" artilleriya topu canlı qüvvəni, raket qurğularını, zirehli hədəfləri, atəş vasitələrini və idarəetmə məntəqələrini məhv etmək üçün təyin edilib. Sərbəst olaraq gecə və gündüz hədəflərə qarşı kəşfiyyat aparmağa, gizli mövqelərdən nişangah atəşi açmağa qadirdir.

2007-ci ildə "Vena" artilleriya topunun ilk sınağı keçirilib və 2010-cu ildə Rusiya ordusunun silahlanmasına qəbul edilib. Top hər növ 120 mm-lik minalardan atəş açmağa qadirdir. Onun daşınan döyüş komplektinin bir hissəsi qüllədə yerləşdirilib. Əlavə olaraq qüllədə pulemyot da quraşdırılıb. Topda müxtəlif döyüş sursatlarından da istifadə edilir. Topun tuşlanması və kəşfiyyatın aparılması üçün lazerli nişangah və optik-elektron gecəgörmə cihazı da quraşdırılıb. Hər iki nişangah alınan məlumatları bort hesablama maşınına ötürür. Tuşlayıcının yerində artilleriya nişangah kompleksi quraşdırılıb. Daxili rabitə əlaqəsi yaratmaq üçün maşında "Arbalet" radiostansiyası yerləşdirilib. Bu stansiya 20 kilometrlik məsafəyə qədər əlaqəni təmin edir.

"Vena" artilleriya topu güllə əleyhinə möhkəm zirehlənib, mühərriki 450 at gücündədir. Artilleriya topunun çəkisi 19,08 tondur. Heyəti dörd nəfərdən ibarətdir. Gövdəsinin uzunluğu 6856 mm (topla birlikdə 7511 mm), hündürlüyü 3439 mm, eni 3366 mm, sürəti isə saatda 70 kilometrdir. Yüksək keçidliyə malikdir, müxtəlif dərinlikdə və hündürlükdə olan çətin maneələri dəf edə bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Kolumbiyada limanda partlayış baş verib, 6 nəfər həlak olub



Kolumbiyanın Kartaxen şəhərində limanda baş verən partlayışlarda 6 nəfər ölüb. BBC-nin yaydığı məlumata görə, səbəbləri araşdırılan partlayışlarda 20 nəfər yaralanıb. Yerli yanğınsöndürmə xidmətindən bildiriblər ki, 3 partlayış baş verib, onlardan ikisi eyni ərazidə qeydə alınıb. ABŞ-ın gəmiqayırma zavodunda baş verən iki partlayışdan sonra yanğın başlayıb.

## Əfqanıstanda televiziya binasına hücum olub, 6 nəfər ölüb



Əfqanıstanın Nanqarhar vilayətinin Cəlalabad şəhərində silahlı şəxslərin Milli Radio və Televiziya binasına hücumu zamanı 6 nəfər ölüb, 18 dinc sakin yaralanıb. Basqın zamanı həlak olanların dördü teleradio şirkətinin, ikisi isə təhlükəsizlik qüvvələrinin əməkdaşıdır.

Hücum teleradio şirkətinin binasında insanların çox olduğu vaxt baş verib. "Atəş səslərini eşitdikdə telemərkəzi tərk etdik. Lakin heyət hücum vaxtı binada iş yerlərində idi", - deyə şirkətin rəhbərlərindən olan Əmrulla Rəvan bildirib.

## Dubay küçələrində patrul keşiyi Robokopa həvalə ediləcək



Şərti olaraq "Al Polismen" adlandırılmış ilk robot-polis mayın 21-dən etibarən Dubay küçələrində patrul keşiyi çəkməyə başlayacaq.

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) KİV-lərinin Dubay polisinə istinadla yaydığı məlumata görə, süni intellektlə təchiz edilmiş robot ərizələri qəbul etməkdə, onları dərhal departamentə çatdırmaqda şəhər sakinlərinə kömək edəcək. Məlumatda qeyd edilir ki, bu yenilik hökumətin "SmartDubai" inkişaf strategiyası barədə təşəbbüsü çərçivəsində tətbiq ediləcək. Strategiyanın 2021-ci ilə qədər yerinə yetirilməsi nəzərdə tutulub. Təşəbbüs Dubayı texniki yeniliklərlə təchiz edilmiş ən müasir şəhərə çevirmək məqsədi daşıyır.

## Koalisiya qüvvələri Suriyada hökumət tərəfdarlarının bölmələrinə aviazərbə endirib



Amerika Birləşmiş Ştatlarının rəhbərlik etdiyi koalisiya qüvvələri Suriyada hökumət qüvvələrinin bölmələrinə aviazərbə endirib.

Hadisənin Ət-Tanf şəhərinin şimal-qərbində baş verdiyi bildirilir.

Koalisiya qüvvələrinin verdiyi məlumata görə, avizərbələr mövcud təhlükələrə cavab olaraq endirilib.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan-leytenant Ağayev Zamiq Qabil oğluna 2016-cı ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qurbanova Günel Azər qızına Müdafiə Nazirliyi tərəfindən verilmiş buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 211
Nüsxə 4650